Xalq qəzeti.- 2021.- 13 iyul.- S.8.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 201** **Bakı şəhəri, 12 iyul 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 17 mart tarixli 97 nömrəli və "İşsiz şəxslərin özünüməşğulluğunun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 13 may tarixli 168 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 260-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358) ilə təsdiq edilmiş "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın 3.2.1-ci yarımbəndinə "əlilliyi olan şəxslər," sözlərindən sonra "şəhid ailəsinin üzvləri," sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 639) ilə təsdiq edilmiş "İşsiz şəxslərin özünüməşğulluğunun təşkili Qaydası"nın 1.2-ci bəndinə "əlilliyi olan şəxslərə," sözlərindən sonra "şəhid ailəsinin üzvlərinə," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***